# MÜASİR DÖVRDƏ MÜTALİƏYƏ MARAĞIN AZALMASININ ARAŞDIRILMASI

UOT 008



**KƏRİMOVA SÜSƏN MƏRDALI QIZI**

*Bakı Dövlət Universiteti Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının III kurs tələbəsi*

**Açar sözlər:** kitab, mütaliə, oxucu, intellekt, kitabxana, mədəniyyət
**Ключевые слова:** книга, чтение, читатель, интеллект, библиотека, культура
**Key words:** book, reading, reader, intelligence, library, culture

Müasir cəmiyyətimizdə ən aktual problemlərdən biri kimi ziyalıları düşündürən əsas məsələ «niyə mütailəyə olan maraq istənilən səviyyədə deyil?». Problemi aradan qaldırmaq üçün yollar axtarılır və bu problemin həlli istiqamətində işləmək təkcə bir nəfərin deyil, böyük bir «işçi qrupunun gərgin fəaliyyətinin, əməyinin nəticəsi olaraq meydana çıxa bilər». Təbii ki, bu işin həlli istiqamətində biz gənclərin göstərdiyi kiçik bir fəaliyyət belə böyük nəticələrin göstəricisi ola bilər. Əgər mütaliənin istənilən səviyyədə olmaması bizi narahat edirsə, təbii ki, buna mane olan amilləri göz önündən qaçırmaq düzgün deyil. Bu göstərilən fəaliyyətin içərisində «mütailə edək, kitab oxuyaq» və digər başlıqlar altında radio və televiziyalarda verilişlər hazırlanmalıdır. Yaddan çıxarmaq olmaz ki, bu problemin həlli istiqamətində ən çox gənclər işləməli, işin ərsəyə gəlməsində universitetin akt zallarında maarifləndirici söhbətlərin aparılması və təşkil edilən görüşlərin istənilən nəticə verməməsinin səbəbləri araşdırılmalı və problem həllini tapana qədər işlər davamlı aparılmalıdır. Kitaba marağı artıran üsullardan biri:

Savadlı adam mütaliə etmirsə təkrar savadsızlığa məhkumdur. İnsan gərək bütün ömrü boyu maariflənsin (V.Kubarev).

- Birinci olaraq bu işin başlanğıcı kiçik cəmiyyət dediyimiz ailənin təməl daşını qoyduğu övladının kitaba, oxumağa marağını artıran yollar tapmalıdır. Hər bir evdə ailə statusu və səviyyəsindən asılı olmayaraq kiçik kitabxana və Azərbaycanı bir millət, dövlət və demokratik cəmiyyət kimi tanıdan ünsürlər olmalıdır;

- Müəyyən yaş həddinə çatan hər bir uşaq kiçik cəmiyyət adlandırdığımız ailədən ilkin bilik və bacarıqları mənimsəyir. Bu bilik və bacarıqlar avtomatikləşdikcə və dərs yükü artdıqca kiçik yaşlı uşaqlar əlavə ədəbiyyata bilavasitə mütaliə ilə məşğul olmağa maraq göstərmirlər. Bu da gələcəkdə uşaqların təkcə verilən hazır dərsləri mənimsəməsi onları şablon fikir və ideyalar verməsinə bilavasitə yol açır. Məhz buna görə də mütaliəyə olan marağı formalaşdırmaq niyyətilə hər yaş dövrünə uyğun kitablar şagirdlərə təqdim olunmalı və kitabların üz qabığı onların diqqətini çəkəcək dərəcədə maraqlı dizayn olunmalıdır;

*Əsl təhsil yalnız mütaliə ilə əldə edilir*

*C.Bruno*

- Artıq məktəbin verdiyi bilik və bacarıqları müəyyən dərəcədə mənimsəyən bizim gələcəyimiz adlandırdığımız bu gənclik kitab oxumaq mütaliə etmək kimi bacarıqları tam mənimsəmiş olacaqlar. Gənclərimizin bu yolda daha düzgün irəliləməsi üçün KİV, universitetlərdə olan tədbirlər, müəllif və yazıçıların öz yaradıcılıq nümunələri ilə auditoriyanı tanış etməsi, kitabların təqdimatının keçirilməsi və qeyd edək ki, təkcə bir profilli deyil çoxşaxəli mövzuları əhatə edən bu kitablar öz oxucularının ixtiyarına verilməlidir. Bu kimi fəaliyyətlər təkcə mütailə səviyyəsinin yüksəlməsi deyil, sabahımız üçün düzgün fikir söyləyəcək gəncliyin addımlayacağı yolun başlanğıcıdır;

- Sonuncu, yəni yekun mərhələ kimi bu fikirləri söyləmək lazimdir ki, «mütaliə azlığı» adlandırdığımız bu problem həllini cəmiyyətdə onun üzvlərinin səy və bacarığı ilə tapacaqdır. Bu yolda atılan ilkin addım kimi insan kütləsinin çoxluq təşkil etdiyi yer və ərazilərdə təbliğat və maarifləndirici reklam lövhələrinin verilməsi, tez-tez kitab yarmarkalarının təşkil edilməsi, ölkə ərazisinin hər yerində kitabxana və oxu zallarının olması problemin yarısının həlli deməkdir.

- Problemin həlli üçün görüləcək tədbirlər:

Problemin həlli istiqamətində atılan ilkin addım kimi:

1) Nə etməli ki, kitab bizim cəmiyyətin ayrilmaz parçasına çevrilsin? Bu işin köklü surətdə həlli istiqamətində aparılacaq fəaliyyət kimi, müasir zamanın nəbzini tutan müasir formalı binalar, geyimlər, şəhər infrastrukturu necə dəyişirsə kitabxanaların daha doğrusu kitabxana deməklə kifayətlənmək heç də doğru olmazdı. Bu bina biliyə gedən yolda əsas vasitədir. Bu səbəbə görə binaların xarici görkəmi həm də binanın içərisi oxucular üçün rahat və cəlbedici olmalıdır;

2) Məsələyə köklü surətdə yanaşırıqsa, kitabxanalarda işçi heyyəti elə düzgün şəkildə işləməlidir ki, oxucu kitabxanaya və kitaba küsməsin. Buna görə də kitabxanalarda ixtisaslı kadrlar işləməlidir ki, onlar işlədikləri işin məsuliyyət və dəyərini hiss etsinlər. Həmçinin bu işçilər müasir texnika və texnologiyalarla işləməyi bacarmalıdırlar.

Görkəmli Amerika alimi Cess.X.Şira yazir: «Mən belə hesab edirəm ki, yaxşı kitabxanaçının üç mühüm əlaməti vardır: O, hərtərəfli biliyə və düşüncəyə malik olmalı, ona aid olan materiala sahib olmalı, onu bilməlidir. Bu bilikləri elə üsullarla aşılamalıdır ki, onlar üçün mənalı və qiymətli olsun. Nəhayət, üçüncüsü yumor hissidir. Kitabxananın sütunu olan kitabxanaçı kitabı oxucuya sevdirən, onu daim kitabxanadan asılı edən canlı qüvvədir.

Bu fikrimizə təsdiq olaraq, görkəmli rus kitabxanaşunası L.B.Xavkina obrazlı şəkildə kitabxanaçını kitabxananın ürəyi, onun bütün üzvü əlaqələrini hərəkətə gətirən canlı qüvvə adlandırır;

3) Həmçinin ölkə ərazisində kitab mağazalarında işçi kimi fəaliyyət göstərən şəxslər öz alıcılarına istədikləri kitabları verməklə

kifayətlənməməli, onları oxuduqları kitabların profilinə uyğun digər kitablarla da tanış etməlidirlər. Həmçinin kitabların oxucular tərəfindən maraqla qarşılanması üçün həm mağazada, həm də digər obyektlərdə məsələn: kafelərdə, universitet həyətlərində, marketlərdə və digər müəssisələrində kitablarla, əsərlərlə bağlı qısa lakonik məlumatlarla kütləyə bu yönümdə təsir etmək olar;

4) Çağdaş dünyamızda reklam hər hansı bir şeyin tanıdılmasında, təbliğatında mühüm rol oynayır. Çox istərdik ki, maddi qazanc güdülmədən televiziya və radioda gənc yazarlarımızın əsərləri, yeni kitabları işıqlandırılsın;

5) Həmçinin cəmiyyətin bəzi üzvləri səbəbli və səbəbsiz olaraq kitab oxumur. Bəs nə etməli? Hansı ki, radiolarda musiqi fasiləsi var, məhz ən azı ona ayrılan vaxt qədəri kitabların səsli şəkildə oxunması və bu səsləndirməyə könüllülərin cəlb edilməsi ortaya gözəçarpacaq dəyişikliklər çıxaracaqdır. Bunun nəticəsində təhsil səviyyəsindən asılı olmayaraq daha çox kütlə bu mövzuya dair informasiya əldə edəcəkdir;

6) Qeyd edilməsi vacib olan məsələlər sırasında kitab ticarətində marketinqin düzgün qurulması ilə bağlı qüsurları göz önünə gətirmək lazımdır. Bu işin uğurlu nəticələrini əldə etməyin çıxış yolu kimi bu sahə ilə bağlı təlimlərin keçirilməsi və informasiyaların lazımi şəxslərə çatdırılmasıdır. Həmçinin, qeyd etmək yerinə düşərdi ki, kitabın təbliğində, yayımında «Kitab Klubu Məhdud Məhsuliyyət Cəmiyyəti» (MMC) Azərbaycanda nəşriyyat işinin səmərəli qurulması və kitab bazarının normal qaydalar üzrə işləməsinə yardım göstərir.

Nəticə olaraq deyə bilərik ki, bu kimi işlər görülərsə, nəinki mütaliə səviyyəsi yüksələr, həmçinin, yüksək intelektual cəmiyyət qurumlar, mədəniyyət və təhsil səviyyəsi artar. Təkcə müəyyən səlahiyyət sahibi olan şəxslər deyil, həmçinin, cəmiyyətin bütün üzvləri müasirliyə, Avropaya inteqrasiya etmiş olacaqdır.

**Сюсен Керимова**

**Ключ к двери чтения**

**Резюме**

Статья основана на проблеме чтения. и здесь обсуждаются меры, которые необходимо принять для решения проблемы. Также способы, которыми эти меры осуществляются, постепенно представлены исследователем.

**Susen Kerimova**

**The key to the door of reading**

**Summary**

The article is based on the problem of reading and here are the steps that need to be taken to solve the mentioned problem. Also the ways in which these measures are carried out are gradually presented by the researcher.